# İordaniya-Azərbaycan əlaqələrində önəmli məqamlar

## Tarixçi-yazıçı Ömər əl-Armutinin bu mövzudakı kitabı təqdim olundu




**İyulun 10-da Beynəlxalq Mətbuat Mərkəzində İslam Əməkdaşlıq Təşkilatlarına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə tərcümə etdiyi iordaniyalı tarixçi-yazar Ömər əl-Armutinin "İordaniya-Azərbaycan əlaqələrində önəmli məqamlar" kitabının təqdimat mərasimi keçirilib.**

Tədbiri giriş sözləri ilə açan **"İRŞAD" İslam Araşdırmaları Mərkəzinin direktoru, fəlsəfə elmləri doktoru Rafiq Əliyev** sözügedən kitab haqda ətraflı məlumat verdi: "Təqdimatını etdiyimiz bu kitab bizim üçün böyük əhəmiyyət kəsb edir. Kitab ərəb dilində yazılıb və bütün ərəb dünyasında yayılıb. Ərəb dilindən Azərbaycan dilinə tərcümə edilərək nəşr edilib. Ərəb dünyasında Azərbaycan haqqında məlumatlar çox azdır. İslam Əməkdaşlıq Təşkilatının üzvü olmağımıza baxmayaraq, Azərbaycan haqqında o qədər də geniş informasiya yoxdur. Bu, artıq Ömər əl-Armutinin ikinci kitabıdır ki, Azərbaycan dilinə tərcümə olunaraq çap edilib. Bu kitab Azərbaycan dövləti, onun Prezidenti İlham Əliyevin İslam dünyasında apardığı uğurlu siyasəti, müsəlman ölkələri, o cümlədən İordaniya ilə qurduğu sıx əməkdaşlıq və dostluq əlaqələrini özündə əks etdirir. İordaniya ilə Azərbaycanın siyasi, iqtisadi və strateji cəhətdən müəyyən oxşarlıqları var. İki ölkə arasında mədəni və siyasi əlaqələr yüksək səviyyədədir, həmçinin bu dövlətlər Dağlıq Qarabağ və digər məsələlərdə əməkdaşlıq edirlər".




**Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Bəhruz Həsənov** qeyd etdi ki, ümumiyyətlə, hər hansı bir kitabın çap olunması və işıq üzü görməsi əlamətdar və təqdirəlayiq bir haldır: "Bu gün həqiqətən də əlamətdar bir hadisə üçün bir araya gəlmişik Azərbaycan İslam dünyası ilə əlaqələrə böyük əhəmiyyət verir. İslam ölkələri ilə həmrəyliyin yaradılması üçün xüsusi səy göstəririk. Ona görə də, bu kimi kitabların nəşrinin önəmini bir daha qeyd etmək istərdim. Digər İslam ölkələri ilə olduğu kimi, İordaniya ilə Azərbaycan arasındakı diplomatik münasibətlər yüksələn xətlə inkişaf edir. Hazırda Azərbaycan İslam dünyasında həmrəylik meyllərinin artması üçün ciddi səylər göstərir. Bunu nəzərə aldıqda, bu kimi kitabların əhəmiyyətinin bir daha şahidi ola bilərik. İordaniya Azərbaycan üçün əhəmiyyətli ölkədir. İki dövlət arasında diplomatik münasibətlərin yaranmasının 25 ili tamam oldu. Bu müddət ərzində İordaniya ilə Azərbaycan arasında münasibətlər yüksələn xətlə inkişaf edib. Əlbəttə, bu əlaqələrin müəyyən tarixi var. Bu tarixin əsasını da Ümummilli lider Heydər Əliyev və İordaniyanın sabiq prezidenti Hüseyn Bil Talal qoymuşdur. Bu münasibətlər prezident İlham Əliyev və İordaniya dövlət başçısı Kral II Abdulla tərəfindən davam etdirilir. Bir neçə il əvvəl prezidentin ictimai məsələlər üzrə köməkçisi Əli Həsənovun Səudiyyə Ərəbistanına səfəri oldu. Bu səfər çərçivəsində bir sıra görüşlər keçirildi. Görüş zamanı nazirlərdən biri qeyd etdi ki, Azərbaycan haqqında ilk məlumatı yalnız İngiltərədə universitetdə oxuduğu dövrdə bir kitabdan təsadüfən öyrənib. Beləliklə, onda Azərbaycana böyük maraq və sevgi yaranıb. Bu kitab Qurban Səidin "Əli Və Nino" kitabı idi. Mən həmin vaxt bir kitabın insanda yaratdığı təəssüratın şahidi olmuşdum. Ona görə də kitabların dəyərini bilmək lazımdır. Xüsusilə, ölkənin tanıdılması istiqamətində yazılan kitablar böyük əhəmiyyətə malikdir. Biz bunu təşviq etməliyik. Ümid edirəm ki, növbəti illərdə də bu kimi kitablar nəşr ediləcək və İslam dövlətlərində yayılacaq".

**İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının sədri Fazil Abbasov** tədbirin keçirilməsində əməyi olan hər kəsə təşəkkürümü bildirdi: "Bizim əsas missiyamız Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində yaranan problemləri dünya ictimaiyyətinə çatdırmaqdır. Bu, müəllifin Azərbaycana həsr etdiyi ikinci kitabdır. Təqdimatına toplaşdığımız ikinci kitab İordaniya-Azərbaycan əlaqələrindən bəhs etsə də, orada Dağlıq Qarabağ münaqişəsi və 20 Yanvar hadisələri ilə bağlı fəsillər var. Kitabda xarici güclərin dəstəyi ilə ermənilərin Azərbaycan torpaqlarında etnik təmizləmə aparması, 1 milyon dinc əhalinin öz vətənində qaçqın və məcburi köçkünə çevrilməsi ürək ağrısı ilə qeyd edilib. Bu gün bu həmrəylik Azərbaycan və İordaniya tərəfindən layiqincə nümayiş etdirilir. Kitabda təkcə müəllifin öz düşüncələri deyil, digər iordaniyalı müəlliflərin, jurnalistlərin fikirləri də öz əksini tapıb".

Tədbirdə çıxış edən **"Kaspi" Təhsil Şirkətinin təsisçisi, filologiya elmləri doktoru Sona Vəliyeva** söylədi ki, bu kitab həqiqətən Azərbaycana olan sonsuz sevginin təcəssümü kimi ərsəyə gəlib: "Bir dövlət haqqında bütövlükdə geniş məlumata malik olan xarici müəllif tərəfindən kitabın çap olunması həqiqətən bir bayramdır. Həmin dövlət haqqında yazılan məlumatın çatdırılması bayramıdır. Düşünürük ki, bu kitab Azərbaycan xalqı və onun keçdiyi tarixi inkişaf yolu, bu günü, həmçinin onun davamlı, dayanıqlı inkişafı, gələcək planları, daxili, eyni zamanda xarici siyasəti, tarixi və mədəniyyəti haqqında İordaniya xalqına geniş məlumat bəxş edir. Hər iki ölkə başçıları tərəfindən aparılan siyasət nəticəsində 2007-2010-cu illər ərzində qarşılıqlı olaraq 2 səfərin edilməsi və 40-a qədər sazişin imzalanması bu kitabda çox böyük məhəbbətlə yer alır. İordaniyada Azərbaycan mədəniyyət günləri böyük məhəbbət hissi ilə qarşılanıb. Bu mədəniyyət günlərinin qarşılıqlı şəkildə, mübadilə əsasında baş verməsi xalqların bir-birinin mədəniyyətlərini, eləcə də xarakterlərini öyrənməyə, həmçinin ölkələr haqqında ideoloji münasibətlərin inkişafına təkan verir. Hesab edirəm ki, bunların sayını artırmaq lazımdır. Cənab Ömər bəy 40-dan çox kitabın müəllifidir və tarixi, bədii mövzularda yazır. Onu İordaniya xalqı sevir, bundan sonra isə bütün Azərbaycan sevəcək və siz bu gündən etibarən Azərbaycanın dostuna çevrildiniz".

**Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov** kitabın nəşrini tarixi hadisə kimi qiymətləndirdiyini vurğuladı: "Kitab Azərbaycan həqiqətlərini özündə əks etdirməklə yanaşı, bu həqiqətləri bütün ərəb dünyasına çatdırır. Buna görə, mən Azərbaycan jurnalistləri adından müəllifə təşəkkürümü bildirir, ona yeni yaradıcılıq uğurları arzulayıram. Eyni zamanda, fürsətdən istifadə edib İslam Əməkdaşlıq Təşkilatına dərin minnətdarlığımı bildirirəm ki, bu kitabı çap etdiriblər. Müəlliflə Mətbuat Şurasında bizim görüşümüz olub. Kitabda qeyd olunan mövzular haqqında müzakirələr aparmışıq. Azərbaycanı ərəb ölkəsində tanıtmaq çox önəmlidir".

**İordaniyanın ölkəmizdəki səfiri Nassar Əl-Habaşnehi** qeyd etdi ki, İordaniya ilə Azərbaycan arasında əlaqələr çox yaxşıdır və durmadan inkişaf edir: "Münasibətlərimizin yaxşı perspektivləri var. Gələcəkdə də bizim əlaqələrimizin gücünü və yüksək səviyyəsini bizə xatırladan belə işlərin görülməsini arzu edirik".

Sonda **kitabın müəllifi, iordaniyalı tarixçi-yazıçı Ömər əl-Armuti** bildirdi ki, "Dağlıq Qarabağ münaqişəsi və beynəlxalq hüquq" kitabından sonra "İordaniya-Azərbaycan əlaqələrində önəmli məqamlar" adlı yeni nəşri onun Azərbaycana olan sevgisini sübut edir. Yeni kitabda Azərbaycan-İordaniya dostluq və qardaşlıq münasibətlərindən bəhs olunur".

**Şəbnəm Mehdizadə**